yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur









2 CƏMİYYƏTİN XƏRÇƏNGLƏRİ

3 MÖVLUDU FÜRSƏT BİLƏK, HƏQİQƏTİ ÖYRƏNƏK

4 SƏFƏVİ TÜRK XANƏDANLIĞI VƏ ŞAH İSMAYIL XƏTAİ

5 QRİFLƏMƏ PROSESİNDƏ HANSI DƏYİŞİKLİKLƏR PLANLAŞDIRILIR?

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

15 NOYABR 2018-Cİ İL

№018 (77)

## PREZİDENT SEÇKİLƏRİNİN İKİNCİ TURU NOYABRIN 28-DƏ KEÇİRİLƏCƏK



Gürcüstanda prezident seçkilərinin ikinci turu noyabrın 28-də keçiriləcək. Bu barədə qərar Gürcüstanın Mərkəzi Seçki Komissiyasının (MSK) iclasında qəbul olunub.

İclasda prezident seçkilərinin birinci turunun nəticələrinə yekun vurulub. MSK sədri Tamar Jvania yekun protokolu imzalayıb.

Qeyd edək ki, Gürcüstanda prezident seçkilərinin ilk turu oktyabrın 28-də keçirilib. Prezidentliyə namizədlərdən heç biri səslərin 50%-dən çoxunu qazana bilməyib. İkinci turda mübarizə hakim "Gürcü arzusu" Partiyasının dəstəklədiyi müstəqil namizəd Salome Zurabişvili və Vahid Milli Hərəkat Partiyasının namizədi Qriqol Vaşadze arasında aparılacaq.

## MAMUKA BAXTADZE: "MƏQSƏD QOYACAĞIQ Kİ, GÜRCÜSTANDAN ÇİNƏ İXRAC MİNİMUM İKİ DƏFƏ ARTSIN"



"İqtisadiyyatımızın ən zəif tərəfi cari hesabat defisitidir. Buna səbəb isə məhsulun ixracından çox idxal olunmasıdır. Buna görə də, həyati vacib olan ixrac potensialımızı artırmalıyıq". Bu haqda Gürcüstanın baş naziri Mamuka Baxtadze Şanxaya səfərinin yekunu zamanı bildirib.

Hökumət başçısı qeyd edib ki, Gürcüstan şəxsən prezident Si Cinpinin dəvəti ilə Çin Beynəlxalq İdxal Forumunda iştirak edib. Bu, Çinə ixracı artırmaq üçün vasitələrdən biridir.

"Rəsmi olaraq elan olundu ki, Çin xüsusi olaraq bu foruma dəvət olunmuş ölkələrdən ixracı artırmağı planlaşdırır və Gürcüstan da onların sırasındadır. Buna görə, şəxsən prezident Si Cinpinə təşəkkür edirəm. Bizim unikal üstünlüyümüz var – Gürcüstan regionda Çinlə azad ticarət rejimi olan yeganə ölkədir. Bu unikal imkandır və bizim üçün tarixi şansdır ki, Çinə ixracı artıraq. Konkret planla hərəkət edirik və düşünürük ki, növbəti 2 il ərzində ixrac potensialını yetərincə artıra biləcəyik. Məqsəd qoyacağıq ki, Gürcüstandan Çinə ixrac minimum iki dəfə artsın", - deyə Mamuka Baxtadze bildirib.

## GİORGİ MARQVELAŞVİLİ: PARİS SÜLH FORUMU GÜRCÜSTANIN PROBLEMLƏRİNİN MÜZAKİRƏSİ ÜÇÜN YAXŞI İMKAN İDİ



Gürcüstan prezidenti Giorgi Marqvelaşvili Parisdə Birinci Dünya müharibəsinin 100 illiyinə həsr edilmiş tədbirdə iştirak edib. Prezident Fransaya səfərini yekunlaşdırıb və dünya liderləri ilə Gürcüstanın problemlərinin müzakirəsi imkanı yaratdığı üçün Fransaya təşəkkür edib. Sülh Forumu Fransa prezidenti Emanuel Makronun təşəbbüsü ilə keçirilib.

"Bu günlər ərzində Gürcüstan heyəti Birinci Dünya mührbəsinin 100 illik yubileyinə həsr olunmuş Paris Sülh Forumu formatında çalışırdı. Forumda dünyanın 100-ə qədər lideri iştirak edirdi və forumun təşkilatçıları bizə bir-birimizlə qeyri-rəsmi münasibət qurmaq və bizim üçün vacib olan məsələləri müzakirə etmək imkanı yaratdılar. Gürcüstanın problemləri haqqında danışmaq imkanım oldu.

Birinci Dünya müharibəsi, eləcə də İkinci Dünya müharibəsi sülh və ümumi prinsip dəyərlərinin unudulduğu üçün faciədir. Bu, başəriyyəti faciəyə aparıb çıxarıb. Bu kontekstdə Gürcüstanın öz qonşusunun yaratdığı çətinliklər çox aktual və dəqiq səslənirdi. Çünki Gürcüstanın işğalı, Gürcüstanın maraqlarına qarşı hərəkət etmək məhz dəyərlərin və beynəlxalq hüququn tam yaddan çıxarılmasıdır.

Forum təşkilatçılarına təşəkkür etmək istəyirəm ki, bu məsələlərin müzakirəsi üçün bizə imkan verdilər", - deyə Giorgi Marqvelaşvili bildirib.

## ABŞ VAZİANİDƏ HƏRBİ AERODROM İNŞA EDƏCƏK

ABŞ Gürcüstanın Vaziani hərbi bazası ərazisində hərbi aerodrom inşa edəcək. Bu məsələ ABŞ Nəqliyyat Komandanlığının komandanı, general Stefen Lyonsun Gürcüstanın baş naziri Mamuka Baxtadze və müdafiə naziri Levan İzoria ilə Tbilisidə keçirdiyi görüşlərdə müzakirə olunub.

Görüşlərdə bildirilib ki, hərbi aerodromun tikintisi Gürcüstana regionda sabitliyin qarantı kimi NATO-ya üzv ölkələrin hərbçilərini qəbul etmək imkanı verəcək.



Tərəflər həmçinin ABŞ və Gürcüstan arasında strateji tərəfdaşlıq, Gürcüstanın müdafiə qabiliyyətinin gücləndirilməsi məsələlərini və həyata keçirilən birgə layihələri də nəzərdən keçiriblər.



# CƏMİYYƏTİN XƏRÇƏNGLƏRİ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

***"Həsəd aparan zaman paxılın şərrindən (Allaha sığınıram)" (Qurani-Kərim, Fələq surəsi, ayə 5)***

*Bu yaxınlarda xərçənglərlə bağlı maraqlı bir məlumata rast gəldim. Deməli, bu xərçəngləri ovlayarkən onları səbətə və ya hansısa bir qaba qoyurlar. Əgər qabda bir xərçəng varsa o zaman qabın ağzını qapaqla örtürlər ki, qaçmasın. Yox, əgər qabda bir neçə xərçəng varsa qabın ağzını bağlamırlar, açıq saxlayırlar. Niyə? Ona görə ki, səbətdə birdən çox xərçəng olarsa, bir-birlərini aşağı çəkərək qabdan çıxıb xilas olmağa imkan vermirlər. Ona görə də, qabda birdən çox xərçəng olduğu zaman qabın ağzını örtmürlərmiş.*

Lap yaşadığımız cəmiyyətə oxşadı deyilmi? Biz insanlarda da belədir axı. Biri bir az irəli gedib uğur qazanmaq istəyərkən digərləri ayağından dartıb geri çəkirlər. Bacarıqlı insanların kölgəsində görünməməkdən qorxuya düşərək, öz bacarıqsızlıqlarını göstərməmək üçün başqalarını da öz səviyyələrində saxlayırlar, inkişaf etməyə, uğur qazanmağa, irəli getməyə imkan vermirlər. Demək olar ki, hər gün qohumdan, qonşudan tutmuş tanımadığımız insanların paxıllığına ilişib yıxılır, ayağımızı, qolumuzu sındırırıq. Nə etmək olar, qabın içində tək deyilsən ki, qapağını bir əl örtə, sən də ona qarşı mübarizə aparasan. İnsan ictimai varlıq olmağa məcburdur, əks halda dəlixanalıq olur ki, orada da tək qalmağa qoymurlar. Yeganə tək salındığı qab qəbirdir ki, orada da mübarizə aparmaq artıq gec olur.

Paxıllıq haqqında çox yazılıb, çox danışılıb, insan bədənini xərçəng xəstəliyi kimi bürüyən bu hiss insan yaranandan onun hüceyrələrindəmi, ruhundamı yatmış virus toxuması kimi gizlənməkdədir.

İlk qətl hadisəsi də məhz paxıllıq hissi ilə törədilib. İlk insan Adəmin evladları Qabil qardaşı Habili paxıllıq hissi ilə öldürüb. Paxıllıq ilk olaraq qardaş qanı töküb. İlk olaraq qardaş qanına bulaşıb paxıllıq hissi. Sonra yenidən qardaşı hədəfə alıb:

Comərdliyə güvənsən də, sadiq sanma sirdaşları,
Paxıllıqdan nələr etdi gör Yusifə qardaşları. (M. Füzuli)

Yenə də öz iyrənc əməlini davam etdirməkdədir paxıllıq. Yenə də qardaşı-qardaşa, dostu-dosta, qonşunu-qonşuya, həmkarları bir-biri ilə düşmən edir, bir-birinə qırdırır.

Danimarka atalar sözündə deyilir ki, "paxıl adam elə bilər ki, qonşusunun ayağı sınsa, o daha yaxşı yeriyər". Axı insan nəyə görə başqasına paxıllanmalıdır? Biri universitetə qəbul olur, sinif yoldaşları paxıllanır. Biri yeni vəzifəyə təyin olunur, iş yoldaşları paxıllanır. Biri evini təmir etdirir, qonşuları paxıllanır. İkisi ailə qurur, beş-altısı paxıllanır. Biri uşaq dünyaya gətirir, qohumları paxıllanır. Birinin şeir kitabı çıxır, bütün şairlər paxıllanır. Biri maşın alır, bütün kənd paxıllanır. Biri təşkilat yaradır, bütün QHT-lər paxıllanır. Biri məktəb direktoru olur, bütün müəllimlər paxıllanır və sair, və ilaxır. Axı niyə? Sizə nə istisi, soyuğu bütün bunların?! Bacarırsan sən də elə. Qonşunun ayağının sınması ilə sənin və qonşunun da daxil olduğu cəmiyyətə ziyan dəyir. İnsanlarımız paxıl olduğu üçün də cəmiyyətimiz inkişaf etmir, irəliləmir.

Alman şairi Höte deyir ki, "nifrət fəal, paxıllıq isə passiv narazılıq hissidir. Buna görə də təəccüblü deyil ki, paxıllıq hissi tez bir zamanda nifrətə çevrilir". Paxıllığın bir xüsusiyyəti də ondan ibarətdir ki, paxılın özünə də təsir edir. Həzrəti Əli buyurub: "Afərin paxıllığa! Nə ədalətli peşədir! Hamıdan əvvəl öz sahibini öldürər". Nifrətə çevrilən paxıllıq Habili öldürsə də Qabili də öldürür. Peşman olmaq bəzən ölüb yenidən dirilmək olduğu kimi, həm də dirilə bilməməkdir. Atalar sözlərimizdəki kimi: Paxıl artmaz. Paxıl olma, qüssən olmasın. Paxıl olmasan dərdin olmaz. Paxıla Tanrı verməz, versə də qarnı doymaz. Paxılın taxılı bitməz. Paxılın bağı göyərməz. Paxılın goru cəhənnəmdir və s.

*Əgər inkişaf etmiş (sözün bütün mənalarında) cəmiyyət istəyiriksə, ilk növbədə fərd olaraq paxıllıq hissindən müalicə olmalıyıq, irəli gedən fərdlərimizə dəstək olmalıyıq. Yuxarıda misal çəkdiyim ağzı açıq qabdakı xərçənglərdən fərqli olaraq bir toplum kimi, cəmiyyət kimi biz ağzı bağlı qabdayıq. O qapağı yalnız bir-birimizə dayaq olmaqla, aşağıdakıların yuxarıdakıları qaldırması ilə açmaq mümkündür, ayağımızdan aşağı dartmaqla yox. Əks halda bizim salındığımız qabın ağzına heç qapaq da lazım olmayacaq.*

## 2019-CU İLİN 1 YANVARINDAN MƏHDUD FİZİKİ İMKANLI ŞƏXSLƏR ÜÇÜN VERİLƏN SOSİAL YARDIM ARTIRILACAQ



75 000-dən çox məhdud fiziki imkanlı şəxs (II qrup) 2019-cu ilin 1 yanvarından artırılmış sosial paketdən istifadə edəcək. Bu qərarı Gürcüstanın baş naziri Mamuka Baxtadze qeyd olunan qrup nümayəndələri ilə görüşü zamanı bildirib.

Hökumət başçısı məsələ ilə bağlı Səhiyyə və Maliyyə Nazirliklərinə müvafiq tapşırıq verib.

"Bu 75 000-dən çox vətəndaşımıza aiddir və əlbəttə, onların ehtiyaclarını nəzərə almalıyıq. Səhiyyə və Maliyyə Nazirliklərinin tapşırığı var ki, mütləq bu resursu gələn ilin büdcəsində nəzərə alsınlar", - deyə Mamuka Baxtadze bildirib.

2019-cu ilin 1 yanvarından II qrup məhdud fiziki imkanlı şəxslər üçün sosial yardım 20 lari artaraq 120 lari olacaq.

Görüşdə başqa məsələlərlə yanaşı məhdud fiziki imkanlı şəxslərin icma xidməti proqramının maliyyələşdirilməsinə dəstəyi də müzakirə ediblər.

Ölkə başçısı qeyd edib ki, hər vətəndaşın, həmçinin məhdud imkanlı şəxslərin qayğısına qalmaq hökumətin vacib prioritetidir və məhz buna görə də, onlara maddi baxımdan və ictimai işlərə tam qoşulmaları üçün aktiv çalışmalar gedir.

"Bizim üçün son 5-6 il ərzində bu istiqamətdə inkişaf üçün müəyyən resursların ayrılması olduqca vacibdir. Sosial paket də artır. Ancaq onu da başa düşürük ki, bu yetərli deyil və daha çox iş görülməlidir. İnkişaf etmiş ölkənin təcrübəsi ilə daha yaxşı tanış olmaq və Avropa modelini yaratmaq lazımdır. Bu istiqaməti daha da inkluziv etmək üçün yerli bələdiyyənin bu proseslərə qoşulmasını artırmaq lazımdır", - bildirib M.Baxtadze.

Baş nazir maddi dəstəkdən əlavə, məhdud fiziki imkanlı şəxslərin ictimai işlərə qoşulmasını, işlə təmin edilməsini, mədəni və idman tədbirlərində onların iştirakının vacibliyini, əlçatan səhiyyə və yardım vasitələri ilə təmin edilməsinin əhəmiyyətini də diqqətə yetirib.

## ƏCNƏBİLƏRƏ GÜRCÜSTANDA YAŞAYIŞ İCAZƏSİNİN VERİLMƏSİ TƏLƏBLƏRİ SƏRTLƏŞDİRİLİR



Gürcüstan parlamentinin Hüquqi məsələlər üzrə komitəsində "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi statusu" haqqında qanuna nəzərdə tutulan düzəlişlər ikinci oxunuşda müzakirə olunub.

Hakim "Gürcü arzusu" Partiyası tərəfindən hazırlanmış qanun layihəsi ilə ölkədə əcnəbilərə yaşayış icazəsinin verilməsi tələbləri sərtləşdirilir.

Layihəyə əsasən, xarici vətəndaş Gürcüstanda bir illik müddətə yaşayış icazəsi almaq üçün 100 min dollara yaxın dəyəri olan daşınmaz əmlak almalıdır. Mövcud qanunvericiliyə əsasən, bu məbləğ ən azı 35 min dollar təşkil edir. Əcnəbi daşınmaz əmlakı satacağı və ya digər şəxsə verəcəyi təqdirdə, yaşayış icazəsi haqqında sənəddən məhrum ediləcək.

Bununla yanaşı, Gürcüstanda yaşayış izninin alınması üçün investisiyaların minimal həcmi 300 min lari əvəzinə, 300 min dollar həcmində müəyyən olunub. Yaşayış icazəsi haqqında sənəd qeyri-müəyyən müddətə deyil, yalnız 5 il müddətinə təqdim olunacaq.

Əcnəbi vətəndaşa illik dövriyyəsi lari ekvivalentində 120 min dollar təşkil edəcəyi halda da 5 illik yaşayış icazəsi verilə bilər.

Qanun layihəsi parlamentin plenar iclasına tövsiyə edilib.

Qeyd edək ki, 2012-2016-cı illərdə Gürcüstanda 70 min əcnəbi yaşayış icazəsi alıb. Onların da 10 min nəfərini tələbələr təşkil edir. Qeyri-rəsmi məlumatlara görə, ölkədə, təxminən, 100 minə yaxın xarici vətəndaş qanunsuz yaşayır.

## AVTOMOBİLİ NARKOTİK VASİTƏNİN TƏSİRİ ALTINDA İDARƏ ETMƏK CƏRİMƏ VƏ YA 1 İLLİK HƏBSLƏ CƏZALANDIRILACAQ



2019-cu ilin 1 aprelindən qanun qüvvəyə minəcək. Qanuna əsasən, narkotik maddələrin təsiri altında nəqliyyat vasitələrinin idarə olunması Cinayət Məcəlləsi ilə cərimə və ya 1 illik həbslə cəzalandırılacaq.

"Qanun layihəsinin müzakirəsi prosesində hüquq-mühafizə orqanlarının müvafiq testlər və yoxlamaların prosedurları üçün hazır olub-olmadıqları sualı yaranıb. Bu qayda 2019-cu ilin aprelindən qüvvəyə minəcək. Ona qədər sürücünün yoxlanılmasının qanunun tam qorunması ilə olması və vətəndaşların məlumatlandırılmasının vaxtında çatdırılması üçün hazırlıqlar aparılacaq", - bildirib hüquqi məsələlər üzrə komitənin sədri Eka Beselia.

## VLADİMER PUTİN TÜRKİYƏYƏ SƏFƏR EDƏCƏK



Rusiya prezidenti Vladimir Putin "Türk axını" təbii qaz boru kəmərinin ("TurkStream") Türkiyə hissəsinin başa çatması münasibətilə keçiriləcək tədbirdə iştirak etmək üçün Türkiyəyə səfər edəcək.

Bu barədə Rusiya dövlət başçısının köməkçisi Yuri Uşakov deyib.

O bildirib ki, V.Putin "Türk axını" boru kəmərinin Türkiyə sularından keçən hissənin başa çatması ilə əlaqədar noyabrın 19-da İstanbulda keçiriləcək tədbirdə iştirak edəcək.

Qeyd edək ki, "Türk axını" ilə Rusiya təbii qazının Türkiyəyə və Avropaya nəqli planlaşdırılır. Layihə Qara dəniz üzərindən Türkiyənin Avropa hissəsinədək və daha sonra Yunanıstan sərhədinədək qaz boru kəmərinin tikintisini nəzərdə tutur. Boru kəmərinin birinci xətti Türkiyə bazarı, ikincisi Cənubi və Cənub-Şərqi Avropa ölkələri üçün nəzərdə tutulur. Layihənin dəyəri 7 milyard ABŞ dolları qiymətləndirilir.

"Türk axını" boru kəmərinin qoşa xətti üzrə ümumilikdə 1775 kilometr boru döşənib. İstanbulun təxminən 100 kilometr qərbində yerləşən Kıyıköy bölgəsində isə təbii qaz qəbulu terminalının inşası davam edir. Qoşa xəttin hər biri 15,75 milyard kubmetr təbii qaz daşıyacaq. Boru kəmərinin ilk xəttinin Türkiyənin təbii qaza olan hazırkı tələbatının təxminən 35 faizini ödəyəcək. "Türk axını"nın gələn ilin dekabrında istifadəyə verilməsi planlaşdırılır. Ümumi uzunluğu 1100 kilometr olacaq boru kəmərinin dənizdən keçən hissəsi 930 kilometrdir. "Türk axını"nın dəniz borularını "Pioneering Spirit" gəmisi düzür.

Boru kəmərinin əsas rezervini Yeni Urenqoyda çıxarılan təbii qaz təşkil edəcək. Yeni Urenqoydakı 12 trilyon kubmetrlik təbii qaz ehtiyatı "Gazprom"un yataqlarındakı ümumi ehtiyatın 70 faizini təşkil edir. "Gazprom" cari ildə "Türk axını" layihəsinə 3,2 milyard dollar vəsait sərf edəcək.

## AZƏRBAYCAN, TÜRKİYƏ VƏ GÜRCÜSTAN MÜDAFİƏ NAZİRLİKLƏRİ KİBERTƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİNİ MÜZAKİRƏ EDİBLƏR



Azərbaycan, Türkiyə və Gürcüstan Müdafiə nazirlikləri arasında imzalanmış fəaliyyət planına əsasən, Bakıda kibertəhlükəsizlik sahəsində təcrübə mübadiləsinə dair işçi görüşü keçirilib.

Bu barədə Azərbaycanın Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

Tədbirdə tərəflər dünyada baş verən lokal hərbi münaqişələr, terror təhlükəsi və informasiya sistemlərinə kiberhücumların sayının artması məsələlərini, eləcə də qlobal kibertəhlükəsizlik sahəsində vahid fəaliyyət sisteminin təşkilinin vacibliyini müzakirə ediblər.

## SON ÜÇ İLDƏ YÜZ MİNDƏN ÇOX GÜRCÜSTAN VƏTƏNDAŞI AVROPAYA SƏFƏR EDİB

Gürcüstanın Daxili İşlər Nazirliyinin yaydığı məlumata əsasən, cari ilin avqust-oktyabr aylarında 105 min 113 nəfər Gürcüstan vətəndaşı Avropa ölkələrinə səfər edib.

Məlumata əsasən, Avropa ölkələrinin müvafiq dövlət strukturları onların 438-ni geri qaytarıb.

Gürcüstan vətəndaşları ən çox Almaniyaya səfər ediblər (21 295 nəfər). Siyahıda ikinci yerdə İtaliya (16 742 nəfər), üçüncü yerdə isə Yunanıstandır (13 365 nəfər). Gürcüstan vətəndaşları ən çox İtaliyadan etiraz alıblar. İtaliya sərhədçiləri 101 nəfər Gürcüstan vətəndaşını ölkəyə buraxmayıblar.

Gürcüstan vətəndaşlarını öz ölkəsinə buraxmayan dövlətlər sırasında ikinci yerdə Kipr (2751 nəfərdən 54-ü geri qaytarılıb), üçüncü yerdə isə Ruminiya (1564 nəfərdən 32-nə imtina edilib) dayanır.

## BAKI ŞƏHƏRİNDƏ KEÇİRİLƏN BEYNƏLXALQ TEATR KONFRANSINDA TBİLİSİ AZƏRBAYCAN TEATRININ ƏMƏKDAŞLARI DA İŞTİRAK EDİBLƏR

Azərbaycanın paytaxtı Bakı şəhərində V Beynəlxalq Teatr Konfransı baş tutub. "XXI əsr teatr fəlsəfəsi: mövcudluq konsepsiyası" adı altında Azərbaycan Dövlət Musiqili Teatrında keçirilən konfrans Azərbaycan Mədəniyyət Nazirliyi, Teatr Xadimləri İttifaqı və Azərbaycan Milli Elmlər Akademiyasının birgə təşkilatçılığı ilə reallaşıb. Konfransda 50 ölkədən 150-dən çox ekspert iştirak edib.

Konfransda tanınmış gürcü rejissoru Robert Sturua da iştirak edib. Teatrşünaslar, rejissorlar və teatr rəhbərləri ilə yanaşı icraçı katib Şaiq Səfərovun dəvəti ilə Gürcüstandan Heydər Əliyev adına Tbilisi Dövlət Azərbaycan Peşəkar Dram Teatrının əməkdaşları da konfransda iştirak ediblər.

## MÖVLUDU FÜRSƏT BİLƏK, HƏQİQƏTİ ÖYRƏNƏK



Hacı BƏKİROĞLU

hacibakir@mail.ru

*Bildiyiniz kimi qarşıdan Həzrəti Peyğəmbərin mövlud günü gəlir. 19 noyabrı 20 noyabra bağlayan gecə Rəbiül-əvvəl ayının on ikinci günüdür ki, Peyğəmbər Əfəndimizin ad günüdür. Hicrətdə Mədinəyə ayaq basdığı günüdür.*

Peyğəmbər Əfəndimiz (s.ə.s)-in ad günü, miladi təqvimə görə 20 aprelə düşdüyü üçün hər il həm aprel ayının üçüncü həftəsi, həm də hicri tarixlə Rəbiül-əvvəl ayının on ikinci günü mövlud günü olaraq ölkəmizdə yaşayan müsəlmanlar tərəfindən mövlud həftəsi olaraq qeyd edilir.

Ancaq İslam tarixi boyunca ibadət təqvimi olaraq istifadə etdiyimiz hicri təqvimə görə hər il bir əvvəlki ildən on gün qısa olur. Hicri təqvimə görə təyin olunan Mövludu Nəbi gecəsi də hər il on gün əvvəl gəlir, bu səbəblə də bu ildən ancaq Peyğəmbər Əfəndimizin ad günü olan Rəbiül-əvvəl ayının on ikinci gecəsi və onu izləyən həftə Mövludu Nəbi Həftəsi olaraq qeyd olunacaq.

Bu gün cəmiyyətin, xüsusilə gəncliyin əsas ehtiyacı Peyğəmbər Əfəndimizin üstün əxlaqını öyrənmək, öyrətmək, yaşamaq və yaşatmaqdır. Bu gün dünyanın yaşadığı səfalətin, şiddətin, vəhşiliyin, cəhalətin daha çoxunu Əfəndimizin dünyaya gəldiyi cəmiyyət də yaşayırdı və o dövrün tarixdəki adı orta çağ idi, o cəmiyyətin adı da "cahiliyyə cəmiyyəti" idi, o çağ cahiliyyə çağı idi. O Peyğəmbər ki, o cahil, vəhşi, sərt, səfil və cahil cəmiyyəti dünyanın bir daha görmədiyi və görə bilməyəcəyi mədəni bir cəmiyyət etdi. Bir kişinin yüzlərlə qadınla evləndiyi, qadınların bazarlarda alınıb-satıldığı, insanların kölə və zadəgan deyə iki sinfə ayrıldığı, faizin tək dolanışıq qaynağı olduğu, güclünün zəifləri əzdiyi, ədalət, haqq və hüquq kimi anlayışların unudulduğu bir cəmiyyəti dəyişdirdi və bu insanlardan dünyanın ən ədalətli, müşfiq və mərhəmətli cəmiyyətini meydana gətirdi, səhradakı qəbilələrdən üç qitəyə hökm edən bir dövlət çıxardı.

Peyğəmbərimiz (s.ə.s), Rəbbimiz tərəfindən xüsusi bir soydan seçildi, xüsusi olaraq öyrədildi, xüsusi xüsusiyyətlərlə və əxlaqi prinsiplərlə təchiz edildi, xüsusi bir coğrafiyada yetişdirildi və dünyanın ən mədəni cəmiyyəti də onun məktəbində yetişdi. Daha peyğəmbər seçilmədən əvvəl Əfəndimizin önə çıxan xüsusiyyəti "Muhəmmədül-əmin" olması idi. Əminliyi, etibarlılığı, doğruluğu, dürüstlüyü dillərdə gəzərdi, yalnız adı deyilməz, "Muhammədül Əmin" deyə çağrılardı.

İnsanlıq, Peyğəmbər Əfəndimizi tanısa hidayətə və səadətə çatacaq, həll edə bilmədiyi problemlərinə həll tapacaq.

Bu gün bütün dünyanın təhlükəsizlik, terror, aclıq, can, mal və namus təhlükəsizliyi, insan kimi yaşamaq, irqçilik problemi var. Qısacası insanlıq iqtisadi, ictimai və siyasi problemlərlə boğuşmaqdadır. Bütün bu problemlərin həlli də, dərmanı da Əfəndimizin həyatında, söz və tövsiyələrində, gətirdiyi Quranda və qurduğu sistemdə vardır. Onun gətirdiyi inanc sistemində zəkat əmri, sədəqə tövsiyəsi, faiz qadağası insanlığı iqtisadi problemlərdən və aclıqdan qurtarmaq üçündür. Quranın qisas əmri insanlığın can təhlükəsizliyinə çarə olacaq, terror bəlasına həll gətirəcək. "Ey insanlar, sizi bir kişi və qadından yaratdıq", "İnananlar ancaq qardaşdır" ayələri, "Ərəbin əcəmə üstünlüyü yoxdur, üstünlük təqva ilədir" hədisləri irqçilik xəstəliyinin dərmanıdır.

Əfəndimiz (s.ə.s) gəldiyində və ya Rəbbimiz tərəfindən göndərildiyində insanlıq bu gündən daha betər fitnə və fəsad içində idi. Bu gündən daha betər zülm altında idi. İnsanlar kölələr və zadəganlar deyə ikiyə ayrılmışdı.

Afrikada milyonlarla insan aç və səfil yaşayırkən, dünyanın qərb qismində ev heyvanlarının yeməklərinə milyardlar xərclənməkdədir. İnsanları yox edən silahlar çıxarılmaqdadır. Bir çox bölgələrdə terrorun ən mərhəmətsiz şəkli ilə hücum edilməkdə, evlər yandırılmaqda, yıxılmaqda və insanların öldürülməyinə davam edilərkən, digər tərəfdə bu terroristlərin əllərinə silah verilməkdə, qorunub bəslənməkdədir. Bir tərəfdə qadınların bədənləri istismar edilməkdə, qadın bədənindən pul qazanılmaqda, bir tərəfdə də eyni qadınlar şiddətə məruz qalmaqda, vəhşicəsinə öldürülməkdədir. Bir tərəfdə uşaqlar dənizlərdə boğulmaqda, aclıqdan ölməkdə, bir tərəfdə də uşaqlar istismar edilməkdədir. Bir tərəfdə köşklərdə insanlar vur partlasın, çal oynasın yaşayarkən, o biri tərəfdə çadırlarda, vətənindən uzaqda mühacirlər xor görülməkdə, insan yerinə qoyulmamaqdadır.

Bəli, Əfəndimizdən əvvəlki cahiliyyə həyatı bu gün də yaşanmaqdadır. İnsanlıq ən azı o günkü qədər bu gün də ona möhtacdır. Bir daha peyğəmbər gəlməyəcək, amma son Peyğəmbərin gətirdiyi Quran, söylədiyi hədislər və həyata işıq tutan sünnəsi ortadadır. Yəni Peyğəmbərimiz əslində aramızdadır. Otuz mindən çox səhih və həsən hədisləri kitablarımızda qeydlidir. Təbliğ etdiyi Quranın bir hərfi belə təhrif olunmamışdır. Şəxsən Rəbbimiz tərəfindən qorunmaqdadır. Əfəndimizin həyatı, gün işığı kimi açıqdır. Daha yüz il əvvəl yaşamış kralların həyatları detalıyla naməlumkən, bir çox qaranlıq nöqtələri varkən, sözləri xatırlanmazkən, on dörd əsr əvvəl aramızdan cismən ayrılan Peyğəmbərimizin 63 illik həyatı gün-gün, saat-saat bilinməkdədir. Onun həyatı qədər aydın bilinən başqa bir insan gəlməmişdir dünyaya.

*Tək vəzifəmiz, kitablarda yazılmış olan bu məlumatları nəslimizə öyrətmək, onun həyatını nümunə götürmək, üstün əxlaqını yaşamaqdır. Çox şükür, bu gün ölkəmizdə dini təhsil məkanları olan mədrəsələrimiz vardır. Odur ki, əziz valideynlər övladlarınızı bu gözəl şəxsiyyətin həyatını və gətirdiyi gözəllikləri öyrənməyə təşfiq edin. Çünki Rəbbimiz "Şübhəsiz ki, Allah Rəsulunun həyatında sizin üçün gözəl nümunələr vardır" buyurmaqdadır.*

# SƏFƏVİ TÜRK XANƏDANLIĞI VƏ ŞAH İSMAYIL XƏTAİ

**İran dünya tarixində əhəmiyyətli bir mədəniyyət mərkəzlərindən biri olmaqla bərabər bu coğrafiya tarix boyunca türk-fars müharibələrinə şahidlik etmişdir. Əslində bu vəziyyət orta əsrlərin tarixi mənbələrində və epiklərində yerini tapmışdır. Məşhur fars şairi Firdovsi Qəznəvi hökmdarı Sultan Mahmudun əmri ilə yazmış olduğu "Şahnamə" əsərində, İran-Turan müharibələrini ələ almış və Turan hökmdarlarının İran taxtını ələ keçirmək üçün apardıqları mübarizələri açıq şəkildə ortaya qoymuşdur. Firdovsi fars mənşəli olması səbəbiylə "Şahnamə" əsərində fars sivilizasiyasını və statizmini yüksəltmiş, turanlıları isə işğalçı və barbar obrazında qələmə vermişdir.**

Firdovsinin öz "Şahnamə"sində turanlılara layiq görmədiyi İran taxtını Turan hökmdarı Əfrasiyabın (Alp Ər Tunqa) nəvələri olan Sacilər, Qəznəvilər və Səlcuqlular ələ keçirərək İran coğrafiyasında min il davam edəcək türk hökmranlığını qurdular.

X əsrdə xilafətin zəifləməsi ilə birlikdə xilafət ordusunun tərkibindəki türk mənşəli əsgərlər ərəblərdən ayrılaraq Şimali İranda və müasir Azərbaycan ərazisində müstəqil Sacoğulları dövlətini qurdular. Daha sonra isə İranın böyük bir hissəsi türk dövləti olan Qəznəvilərin hakimiyyəti altına keçdi. Qəznəvilər ilə ölüm-qalım mübarizəsinə girən digər bir türk dövləti Səlcuqlular 1040-cı ildə Dandanakən müharibəsində Qəznəvilərə qalib gələrək İran taxtını ələ keçirdilər. Bu tarixdən etibarən Türkistanda toplanan oğuz-türk əhalisi sel kimi İrana axmağa başladı. Beləliklə, Səlcuqlular İranda türk hökmranlığını daha da güclü bir hala gətirdilər. Firdovsinin "Şahnamə"sində İran taxtını ələ keçirmək istəyən Əfrasiyab bunu bacara bilmədi. Ancaq Əfrasiyabın nəvələri İran taxtını ələ keçirdilər və atalarının "qırmızı alma" deyə ifadə etdikləri məqsədlərini həyata keçirə bildilər. Türklər İranda sadəcə taxt qurmadılar, bu coğrafiyanı həm də türk sivilizasiyasının mərkəzlərindən birinə çevirdilər.

İran mülkünə sahib olan türk hakimiyyətinin ən əhəmiyyətli halqalarından biri də Səfəvi Azərbaycan türk dövlətidir. Bu dövlətin qurucusu və ən böyük hökmdarı türk ədəbiyyatının birinci sinif şairi, ozanlar ozanı Şah İsmayıldır.

"İranın şahısan, Türküstan xanı,
Mürşidi-kamilsən, cahanın canı."

Şah İsmayıl XIII əsrin əvvəllərində Ərdəbil şəhərində ortaya çıxan və ilk başlarda sünnü olan Səfəvi təriqətinin qurucusu Şeyx Səfiyəddinin nəslindəndir. Tarixi qaynaqlar Şeyx Səfiyəddin haqqında "Ey türk üzlü", "Ey türk gənci" və "Ey türk oğlu" deyə bəhs etməkdədir. Yenə həmin dövrün mənbələri Ərdəbil təkkəsini Türkistandan bu bölgələrə köçən türkmənlər üçün mənəvi mərkəz olduğunu söyləyir. Şah İsmayıl ana tərəfdən isə Bayındır tayfasından olan Ağqoyunlu hökmdarı Uzun Həsənin qız nəvəsidir.

Dövrün sosial, mədəni və siyasi konyunkturası ilə əlaqədar Yaxın Şərqdə bir çox dini və siyasi hərəkatlar ortaya çıxdı. Bunlardan biri də sünnü Səfəvi təriqətinin şiəliyə doğru istiqamət almasıdır. İlk başlarda dini bir hərəkat olan bu yönəlmə daha sonra siyasi bir forma aldı və İran mülkünə şiə türkmənlər oturdu. Bu dövrlə birlikdə ümumi türk tarixində yeni bir səhifə açıldı. Əfrasiyabın nəvələri İran mülkünü şiə türkmən bağına çevirdi.

Bu coğrafiyada Səfəvilər türk dilini dövlət dili elan edən ilk türk dövlətidir. Şah İsmayıl bu türk dövlətinin sərhədlərini Bağdaddan Hindistana, Qafqazdan Fars körfəzinə qədər genişləndirdi. 13 yaşındaykən taxta çıxan bu hökmdar tarixi mənbələrdə cəsur və pəhləvan kimi xatırlanır. O, bütün rəqiblərini və qonşularını məğlub edərək güclü bir türkmən dövləti yaratmışdır. Bu dövləti quran türkmənlərdən bir çoxu, Anadolunun bağrından qopub yenə bir türk dövləti olan Ağqoyunluları yıxıb Səfəviləri meydana gətirən Rumlu, Ustaclı, Təkəlü, Şamlu, Dulqədirli, Varsaq, Turqutlu, Bozçalu və Çepni kimi türkmən tayfalarıdır.



Bu dövr Azərbaycan və İran coğrafiyasında türk memarlığının, türk musiqisinin və eyni zamanda türk ədəbiyyatının inkişaf dönəmi olmuşdur. Dünyanın önəmli mədəniyyət mərkəzlərindən biri olan Təbriz şəhəri Səfəvilərin paytaxtı olmasıyla birlikdə daha da önəmli bir mövqe qazanmışdır. Şah İsmayılın sarayda aşıqlara önəm verməsi, şair və yazıçıların türkcə şeir və ədəbi əsərlər qələmə almaları üçün təşviq edilməsi, eyni zamanda özünün də türkcə şeirlər yazaması Səfəvilərin türk sənət və ədəbiyyatına nə qədər qiymət verdiyini göstərir. Dərbənddən Həmədana qədər olan bu geniş coğrafiyanın Azərbaycan türklərinin adıyla anılması bu dönəmdə həm siyasi, həm də mədəni bir məna qazanır.

Bir qəndildən bir qəndilə taxıldım,
Türab olub yer üzünə yaxıldım,
Bir zaman da çaxmaq ilə çaxıldım,
Könlümə od düşdü, yandım da gəldim.

16-cı əsrdə bölgənin iki böyük dövləti olan Osmanlı və Səfəvilərin qarşı-qarşıya gəlməsi qaçılmaz bir həqiqət idi. Hakimiyyət ehtirası, torpaqlarını genişləndirmə arzusu, ticarət yollarını ələ geçirmək, iqtisadi tarazlığı öz lehlərinə çevirmək və bunun kimi sosial və iqtisadi səbəblər bu iki türk dövlətini məzhəb bəhanəsi altında qarşı-qarşıya gətirdi. Nəticədə Çaldıran düzü bu iki türk ordusunun ən talesiz mübarizəsinə səhnə oldu. Çaldıran döyüşündə Səfəvilər ağır məğlubiyyətə uğradı və hər iki tərəfdən də minlərlə türkmən həyatını itirdi. Bu müharibə türk tarixinin qara ləkəsi, türk millətinin faciəsi oldu. Bütün bu tarixi proseslərə rəğmən nə Şah İsmayılı, nə də Sultan Səlimi xor görə bilmərik. Əksinə, biz əgər tarixi düzgün dəyərləndirə bilsək bu talesiz hadisəni türk tarixində hər zaman var olan bir iqtidar mübarizəsi olaraq görə bilərik. Bu müharibəni bir məzhəb və ya iki ayrı millət arasındakı mübarizə olaraq görmək kökündən yanlışdır. Bu mübarizə iki türk xanədanlığının iqtidar mübarizəsidir və türk ilə türkmənin, yəni iki qardaşın mübarizəsidir. Biz nə yavuzdan, nə də şahdan imtina edə bilərik. Hər iki hökmdar da türk millətinin iftixarıdır.

**Cəfər MUSTAFALI**
*Mərmərə Universiteti, Türkiyat Elmi Araşdırmalar İnstitutu, Ümumi Türk Tarixi üzrə magistr tələbəsi*

# KEYFİYYƏTLİ TƏHSİL ALMAQ ÜÇÜN DÜNYANIN ƏN UCUZ UNİVERSİTETLƏRİ

Xaricdə təhsil almaq arzusuna baxmayaraq tələbələr onu əlçatmaz hesab edirlər. Amma müasir xarici tədris müəssisələrinin rəngarəngliyindən dolayı xaricdə keyfiyyətli və əlçatan təhsil almaq tam olaraq realdır.

Dünyada əlçatan qiymətlərə keyfiyyətli və prestijli təhsil almaq imkanı verən bir çox universitetlər var ki, onların siyahısını sizlərə təqdim edirik:

**TU Dresden, Almaniya**

Drezden Texniki Universiteti – bu, Almaniyanın ən geniş və tanınmış texniki ali təhsil müəssisəsidir. Orada təqribən 40 000 tələbə təhsil alır. Universitet 14 fakültədən ibarətdir. Həmçinin tələblərin əksəriyyəti Drezdenin göbəyində, tarixi binalarda təhsil alırlar.

Tələbələrə universitetdə müxtəlif fənlərin – filologiya, tarix, dəqiq elmlər, pedaqogika, iqtisadiyyat, hüquq, maşınqayırma, mühəndislik, arxitektura, nəqliyyat, kənd təsərrüfatı və tibbin tədrisi təklif olunur.

Tədrisin semestr qiyməti 500 avrodur.

**KAIST, Cənubi Koreya**

Koreya Qabaqcıl Elmlər və Texnologiyalar İnstitutu (KAIST) Cənubi Koreyanın aparıcı elmi-texnoloji araşdırma üzrə ali təhsil müəssisəsidir. Ölkənin texnoloji tərəqqi potensialında institutun rolu böyükdür.

Burada tələbələrə çoxsaylı proqramlar, mübadilə proqramları və xaricdə təcrübə keçmək təklif edirlər. KAIST bunları dünyanın aparıcı universitetləri ilə əməkdaşlıqla həyata keçirir.

Universitet 5 kollecdən ibarətdir. Onların 5-i də tələbələrə ingilisdilli proqramlar təklif edir. KAIST-də mühəndislik, kompüter elmləri, biologiya, biomühəndislik, təbiətşünaslıq, humanitar elmlər, mədəniyyət, biznes, idarəçilik və maliyyə üzrə təhsil almaq mümkündür.

Tədrisin semestr qiyməti 3,200 avrodur.

**KU Leuven, Belçika**

Löven Katolik Universitetinin əsası 15-ci əsrdə qoyulub. Belçikanın və Avropanın ən böyük, prestijli təhsil müəssisələrindən biri hesab olunur.

Bu gün universitetin kampuslarında 56, 000 tələbə təhsil alır. Onların 16%-i 150-yə qədər ölkədən gəlmiş xaricilərdir. KU Leuven-nin 16 fakültəsində hüquq, iqtisadiyyat, biznes, fəlsəfə, teologiya, psixologiya, ictimai elmlər, incəsənət, təbiətşünaslıq elmləri, arxitektura, tibb, etika və bir çox sahələrdə təhsil almaq mümkündür. Universitetin laboratoriyasında dünya səviyyəli araşdırmalar aparılır.

Tədrisin semestr qiyməti 922 avrodur.

**Brigham Young University - Idaho, ABŞ**

ABŞ-ın Briqam Yanq Universiteti yerli və xarici tələbələrə təhsil almaq təklif edir. Həmçinin universitetdə tələbələrə bir çox sertifikatlı proqramlar təklif edilir.

Universitet çoxsahəlidir. Orada dilçilik və pedaqogikadan başlayaraq, biznes və kənd təsərrüfatına qədər müxtəlif sahələri öyrənmək mümkündür.

Tədrisin semestr qiyməti 3,750 avrodur.

**Montanuniversität Leoben, Avstriya**

Leoben Universiteti Avstriyanın tarixi şəhəri Leobendə yerləşir. Universitet Avstriyanın ən yaxşı Texniki Universitetlər Asossiasiyasına – "TU Austria"ya daxildir və tələbələrə dağ-metallurgiya, riyaziyyat informasiya texnologiyaları, elektronika, mexanika, iqtisadiyyat sahələrində keyfiyyətli təhsil təklif edir.

Tədrisin semestr qiyməti 726 avrodur.

Hazırladı: Aynurə ƏLİYEVA

# QRİFLƏMƏ PROSESİNDƏ HANSI DƏYİŞİKLİKLƏR PLANLAŞDIRILIR? 2021-Cİ İLDƏN ŞAGİRDLƏR TAMAMİLƏ YENİLƏNMİŞ DƏRSLİKLƏR ALACAQLAR

Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi dərsliklərin qriflənməsinin yeni mərhələsinə başlayır. Cari ildə VII sinfin dərsliklərinin qriflənməsi prosesinə başlanılacaq. Gələn illərdə isə müsabiqə başqa siniflərə də aid olacaq.

Müəssisədə əvvəlki qrifləmənin səhv və qeyri-müəyyən olmasını inkar edirlər. Proses şəffaf keçirilmədi və dərsliklərin seçilməsi üçün məktəblərin yetərli dərəcədə vaxtı yox idi.

"Qeyd edək ki, əvvəlki qrifləmə prosesinin tam analizi həyata keçirildi. Aşkarlanan səhvlər, ekspertlərin seçilməsinin və qiymətləndirməsinin qeyri-şəffaf prosesi, məktəblərə seçim üçün verilmiş müddətin aydın olmaması, prosedurların daim dəyişdirilməsi kimi hallar yoxlanıldı. Xüsusən qeyd etmək istərdik ki, yeni qrifləmə müsabiqəsinin şərtləri hamıya prosesin başlanğıcında aydın olacaq. Nəşriyyatlar və başqa maraqlanan şəxslərlə məsləhətləşmələrdən sonra resenziyalaşdırma qaydaları, eləcə də qiymətləndirmənin tərkib və texniki meyarları təsdiqlənəcək", - bildirib məktəbəqədər və ümumtəhsil inkişaf departamentinin rəhbəri Mariam Çikobava.

Nazirlik nümayəndələrinin bildirdiyinə görə, 2018-ci ildə VII sinfin dərsliklərinin müsabiqəsi elan olunacaq. 2019-cu ildə müsabiqə baza pilləsinin başqa siniflərinin dərslikləri üçün elan olunacaq. 2020-ci ildə orta pillənin dərslikləri üçün müsabiqə elan olunacaq. Milli Tədris Planının orta pilləsinin nəzərdən keçirilməsi başa çatdıqdan sonra isə 2021-ci ildən məktəblərdə baza və orta pillələrdə tam şəkildə yeni Milli Tədris Planı tətbiq olunacaq və şagirdlər yenilənmiş dərslər alacaqlar.

Məktəbəqədər və ümumtəhsil inkişaf departamentinin rəhbərinin izahatına görə, yeni Milli Tədris Planında xüsusi aksent tənqidi fikrə ediləcək, yalnız məzmunun yadda saxlanılmasına deyil, tədqiqi, yaradıcı və əməkdaşlıq bacarıqlarının inkişafına da üstünlük veriləcək.

"Dərsliklərin hazırlanması zamanı bu tələblərin müəlliflərə aydın olması olduqca vacibdir. Dərsliklərin keyfiyyətinin təmin edilməsinə xüsusi aksent edilir. İlk növbədə nəşriyyatlara ən çox vaxt dərsliyin yazılması üçün veriləcək – təkcə VII sinfin dərslikləri üçün 4 aydan çox vaxt ayrılacaq. Bundan əlavə, müəlliflərin özünün hazırlanmasına daha çox vaxt sərf olunacaq. Dərsliklərin müəllifləri üçün fənn standartlarının dərk edilməsi ilə əlaqədar olan davamlı fənn konsultasiyaları keçiriləcək. Görüşlərin həftəlik forması olacaq. Nazirlikdən əlavə, mövzuya uyğun iş görüşlərini hökumət və qeyri-hökumət təşkilatları da keçirəcəklər. Bizim üçün vacibdir ki, dərsliklərin yazılması prosesində müəlliflər üçün heç bir sual cavabsız qalmasın", - deyə Mariam Çikobava bildirib.

Onun sözlərinə görə, qrifləmə prosesində daha bir neçə vacib dəyişiklik var. Bu, sayca azalan, daha da ciddi və Milli Tədris Planına istiqamətlənmiş məzmun meyarlarıdır.

Keyfiyyət və qiymətin nisbəti ilə bağlı – dərsliklərin keyfiyyətinin əhəmiyyətindən dolayı yekun balın hesablanmasında qiymətin azalması, məzmun keyfiyyətinin artırılması planlaşdırılıb. Keçən qrifləmə zamanı nisbət belə imiş: 70% məzmun və 30% qiymət. Hazırda proporsiya keyfiyyətə istiqamətlənib, 90% məzmun, 10% qiymət olacaq.

Nazirlik rəycilərlə bağlı da dəyişikliklər planlaşdırır. Müəssisədən bildiriblər ki, əvvəlki qrifləmədən fərqli olaraq qiymətləndirən-



lərin seçilməsi prosesi tamamilə şəffaf olacaq. Dərslikləri yalnız bir düzəliş edənlər qrupu qiymətləndirəcək və əlavə komissiya olmayacaq.

Dərsliklərin qiymətləndirilməsi isə bir neçə istiqamətdə planlaşdırılır. Konkret olaraq: Milli Tədris Planına riayət etmək; Məzmun dəqiqliyi; Struktur dəqiqliyi; Dil dəqiqliyi; Hüquqi və etik normalara riayət; Davamlı inkişaf prinsiplərinə riayət.

Müəllif: Tamta VİRSALADZE
Tərcümə: Aynurə ƏLİYEVA

## 2019-CU İLDƏN MƏKTƏB DİREKTORLARININ, PEDAQOQLARIN VƏ ADMİNİSTRASİYA ƏMƏKDAŞLARININ ƏMƏK HAQQI ARTACAQ



2019-2021-ci illərdə məktəb direktorlarının, administrasiya əməkdaşlarının və müəllimlərin maaşı artacaq. Bu haqda Gürcüstanın təhsil, elm, mədəniyyət və idman nazirinin müavini İrina Abuladze müəllimlərlə görüşü zamanı bildirib.

Nazir müavini qeyd edib ki, 2022-ci ildə müəllimin orta aylıq əmək haqqı 1800 lariyə qədər artacaq, yüksək pillə üzrə müəllimin əmək haqqı isə 2000 lari və daha artıq olacaq. 2019-cu ilin dövlət büdcəsi layihəsində məbləğlər artıq nəzərə alınıb.

İrina Abuladze Tbilisi ictimai məktəblərinin müəllimlərini reforma çərçivəsində nəzərdə tutulmuş ümumi təhsilin inkişafının baxışı, gələcək planları və yeni təşəbbüsü ilə tanış edib.

Görüşdə Milli Tədris Planına daxil olan dəyişikliklər, məktəbin yeni model konsepsiyası, əmək haqqının artırılması siyasəti haqqında söhbət açılıb. Nazir müavininin bəyanatına görə, təhsilin keyfiyyətinin yüksəlməsi, məktəbin daha maraqlı və müasir olması, yeniyetmələrdə tənqidi və azad fikrin inkişaf etməsi üçün bir çox yeniliklər tətbiq olunur. İlk növbədə bu, yeni tədris planı, yenilənmiş məktəb kitabları və başqa tədris resursuları, pilot rejimdə həyata keçirilən yeni tədris modelinin əsasının qoyulmasıdır. Yeni plan bir çox istiqamətləri – dərs prosesində yenilənmiş yanaşmanı, daha çox analizin daxil edilməsini, məktəblərdə olduqca çox texnologiyaların, innovasiyanın əsasının qoyulmasını əhatə edir.

## GÜRCÜSTAN MİQYASINDA NEÇƏ BAŞ, APARICI VƏ MENTOR STATUSLU MÜƏLLİM VAR

Bugünkü vəziyyətə əsasən, aparıcı və baş müəllim statusundan 24 882 müəllim istifadə edir və Müəllimlər Evi tərəfindən planlaşdırılmış dəyişikliklər də ilk növbədə məhz bu pedaqoqlara aid olacaq. Ümumi olaraq pedaqoqların sayı 66 600-dən artıqdır.

Məlum olduğuna görə, baş və aparıcı müəllim statusu daimi olmayacaq. Təkcə mentor müəllimlər statusu saxlamalı və kredit toplamalı olmayacaqlar. Konkret olaraq Müəllimlər Evi statusla bağlı pedaqoqlara hansı yeniliklər təklif edir. Bu, 2019-cu ilin sonunda məlum olacaq.

Müəllimlər Evinin təqdim etdiyi məlumata əsasən, 24 381 baş müəllim, 501 aparıcı müəllim, 31 mentor müəllim var.

Qeyd edək ki, müəllimlərin statusunun əlavəsi bir neçə dəfə artıb. Son dəyişiklik isə 2018-ci ilin fevralından qüvvəyə minib. Dəyişikliyə əsasən, aparıcı və mentor müəllimlər tam qrafiklə çalışan zaman əlavənin miqdarı artır.

Aparıcı müəllim statusu olan müəllimlərin əlavəsi tam qrafiklə çalışdıqları halda 700 lari (ələ alınan məbləğ 560 lari) təşkil edir.

Mentor statusu olan müəllimlərin əlavəsi tam qrafiklə çalışdıqları zaman 1000 lari (ələ alınan məbləğ 800 lari) təşkil edir.

## QRİFLƏNMİŞ DƏRSLİKLƏR QEYRİ-GÜRCÜ MƏKTƏBLƏRƏ NƏ ZAMAN DAXİL OLACAQ VƏ NAZİRLİK NƏ ÜZƏRİNDƏ ÇALIŞIR

***Gürcüstan məktəblərində başlanğıc pillənin dərslikləri yeni tədris ilindən təzələnib. Qrifləmə prosesində müsabiqə üçün daxil olunan bir neçə fənnin dəsrlikləri qriflənməyib, səhvlər olub və Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin məlumatına görə, başlanğıc pillə üçün bu fənlərin dərsliklərinin qriflənməsinə dair müsabiqə VII sinfin dərsliklərinin müsabiqəsi ilə birgə yenidən elan olunub.***

***Bu proses qeyri-gürcü məktəblərə də toxundumu və onların yeni dərslikləri nə zaman olacaq? Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin məsələ ilə bağlı suallara cavabını təqdim edirik:***

**– Məlum olduğu kimi, başlanğıc pillədə Milli Tədris Planı yenilənib. Milli Tədris Planına əsasən, qeyri-gürcü məktəblər üçün hansı yeniliklər var?**

– Milli Tədris Palnının administrativ hissəsi bütün təhsil müəssisələrinə toxundu, həmçinin qeyri-gürcü məktəblərə də. Müvafiq olaraq milli planın giriş hissəsi (administrativ hissə) və başlanğıc pillənin bütün fənn standartı/proqram Azərbaycan və erməni dillərinə tərcümə olundu.

**– Qeyri-gürcü məktəblərin başlanğıc pilləsində dərsliklər (konkret olaraq gürcü dili dərsliyi) dəyişməyib. Onların dəyişdirilməsi nə zaman planlaşdırılır və bu dəyişikliklər gələcəkdə hansı fənlərə toxunacaq?**

– Bildiyiniz kimi, yenidən işlənilmiş Milli Tədris Planının qeyri-gürcü məktəblərdə əsasının qoyulması 2018-2019-cu ildə başladı. Yeni qriflənmiş dərsliklər I-VI siniflərə daxil olub. Qeyri-gürcü məktəblərdə yeni Milli Tədris Planının əsasının qoyulması gələcək tədris ilindən başlamalıdır. Ona qədər dərsliklər Azərbaycan və erməni dillərinə tərcümə olunacaq. İkinci dil kimi gürcü dili fənninin müsabiqəyə daxil olan dərliskləri isə qriflənməyib. Müvafiq olaraq, yeni qrifləmənin elan edilməsi zamanı həmin fənnin dərsliyinə müsabiqə başdan elan olundu.

**– Yeni Milli Tədris Planına əsasən, birinci semestr də daxil olmaqla başlanğıc beş sinfə müəyyən edilmiş qiymətləndirmə yazılmır. Bu dəyişiklik qeyri-gürcü məktəblərə də aiddirmi?**

– Bəli, qeyd etdiyimiz kimi, bu dəyişikliklər (həmçinin, qiymətləndirmə sistemi) qeyri-gürcü məktəblərə də aiddir.

**– Qeyri-gürcü məktəblərin müəllimlərinin bir sıra fənlərdən müəllimlər imtahanını vermək imkanı yoxdur. Məsələn, rus dili, erməni dili, Azərbaycan dilindən imtahan yoxdur. Ana dilində peşəkar bacarıqlar imtahanını da verə bilmirlər. Bu da onların irəli getməsini və müəllimlərin sxemə qoşulması prosesini çətinləşdirir. Onlara bu imtahanı təklif etmək nə zaman planlaşdırılır?**

– Məsələ müzakirə prosesindədir.

Hazırladı: Çisana ŞERQİLAŞVİLİ
Gürcü dilindən tərcümə: Aynurə ƏLİYEVA

# HÖKUMƏT TÜRKİYƏYƏ ƏT MƏHSULLARININ İXRACININ ARTIRILMASINI PLANLAŞDIRIR



Gürcüstandan Türkiyəyə ixrac olunan məhsulların siyahısı arta bilər. Məsələ ət məhsullarının ixracına aiddir. Qeyd olunan məsələ ilə bağlı Gürcüstanın iqtisadiyyat və Türkiyənin kənd təsərrüfatı nazirləri artıq danışıblar və razılığa gəliblər ki, ixraca başlayana qədər türk mütəxəssislər gürcü ət müəssisələrinin fitosanitar normalarını araşdırsınlar.

Yerli istehsalçılar üçün Türkiyə bazarı ət məhsullarının ixracı baxımından nə dərəcədə əhəmiyyətlidir. Şirkətlərin bir hissəsi təşəbbüsü müsbət qiymətləndirir və bildirir ki, Türkiyə bazarı ilə mütləq marqlanacaq. Digər hissəsi isə deyir ki, məsələ ilə bağlı dəqiq mövqeyləri hələ yoxdur.

"Vake" ət məhsulları şirkətinin baş direktoru Levan Çxeidze bildirib ki, onların şirkəti hələ yalnız Azərbaycan istiqamətində ixrac həyata keçirir, Türkiyə bazarı ilə isə mütləq maraqlanacaqlar.

"Mən düşünürəm ki, yerli şirkətlər üçün Türkiyə bazarına daxil olmaq çox əhəmiyyətli olacaq. Doğrudur, biz Türkiyə istiqamətində ət məhsullarının ixracını həyata keçirmirik, amma ölkədən kənara çıxmağa cəhd göstəririk. Artıq Azərbaycan istiqamətində kiçik addımlar atmışıq. Baxaq görək hadisələr necə davam edəcək. Türkiyə məsələsi ilə şirkət mütləq maraqlanacaq", - deyə Levan Çxeidze bildirib.

Türkiyə bazarına "Liderfood" da maraq göstərir. Şirkətin marketinq meneceri Xviça Cğutaşvilinin bildirdiyinə görə, hazırda "Liderfood" ixrac həyata keçirmir, lakin ət məhsullarını yoxlayışdan keçirməyə və Türkiyə bazarına daxil olmağa hazırdır.

"Şirkətin Türkiyə bazarına daxil olmağa marağı var. Biz Türkiyə ilə dövlət və şirkət səviyyəsində əməkdaşlıq edə bilərik. Gəlib ət məhsullarının keyfiyyətini, müəssisəni, iş şəraitini yoxlaya bilərlər. Baxmayaraq ki, biz indi ixrac həyata keçirmirik, amma məhsulu ixraca çıxarmaq üçün tam hazırıq", - deyə Xviça Cğutaşvili bildirib.

Türkiyəyə ət məhsullarının ixracının artırılması ilə bağlı bəyanatı Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Giorgi Kobulia İstanbulun yeni aeroportunun açılış mərasimində verib. Nazir Türkiyənin kənd təsərrüfatı və meşə naziri Bekir Pakdemirli ilə görüşüb.

Görüşdə Gürcüstan və Türkiyə arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığın dərinləşdirilməsi və genişləndirilməsi haqqında da söhbət aparılıb. Giorgi Kobulianın bəyanatına görə, Türkiyənin kənd təsərrüfatı naziri artıq xüsusi xidmətə tapşırıq verib ki, Gürcüstana aparıcı, yerli ət müəssisələrinin fitosanitar normalarını araşdırmaq üçün komissiya göndərsin.

"Güman edirik və böyük ümidimiz var ki, sertifikatlaşdırma qazanacağıq və Türkiyədə ət ixracını artıra biləcəyik", - deyə G.Kobulia bildirib.

Nini KETELAURİ

# GÜRCÜSTAN MÜSƏLMANLAR İDARƏSİ GÖRDÜYÜ İŞLƏRİN HESABATINI TƏQDİM EDİB




Tbilisidə Gürcüstan Müsəlmanları İdarəsinin (GMİ) illik və son beş ildə görülən işlərin hesabatına həsr olunmuş tədbir keçirilib.

Qurani-Kərimin tilavəti ilə açıq elan olunan tədbirdə dini idarənin şeyxi Hacı Ramin İgidov, Şərqi Gürcüstan müftisi Hacı Yasin Əliyev və Qərbi Gürcüstan üzrə müfti Hacı Beqlar Kamaşidze Gürcüstan Müsəlmanları İdarəsinin cari il ərzində gördüyü işlər və proqramlar haqqında danışıblar. Son beş ilin hesabat məruzəsi ilə çıxış edən Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi Hacı Ramin İgidov məsuliyyətdə olduqları illər ərzində idarə tərəfindən görülmüş işlər və proqramlar haqqında ətraflı məlumat verib.

O bildirib ki, bu illər ərzində ölkədə 15 yeni məscid inşa edilib, 170-dən çox məsciddə isə təmir işləri həyata keçirilib, bir çox məscidin müxtəlif ehtiyacları təmin olunub.

GMİ şeyxi idarənin nəzdində 4 sayt və 2 internet televiziyanın fəaliyyət göstərdiyini və bu günə qədər 1000-ə yaxın verilişin yayımlandığını, 150 kitab, müxtəlif qəzet, poster və jurnalların iri tirajlarla nəşr etdirildiyini də bildirib.

Bu il GMİ həmçinin 56 məscidin təmənnasız qazla təmin olunması üçün "SOCAR Georgia Gas" şirkəti ilə müqavilə imzalayıb. R.İgidov bildirib ki, Gürcüstanda 320-dən çox məscid var ki, onların 200-ü dövlət qeydiyyatına alınaraq GMİ-nin səlahiyyətinə verilib.

"Digər məscidlərin də dövlət qeydiyyatına alınması istiqamətində işlər davam etdirilir. Qeydiyyatla bağlı müəyyən çətinliklər yaranır ki, bu da əsasən məscidlərin mülkiyyət olaraq sahibliyi məsələsi ilə əlaqədardır", - deyə R.İgidov bildirib.

GMİ şeyxi təşkilat tərəfindən bu il həyata keçirilən xeyriyyə və digər tədbirlər barədə də danışıb. O, bir neçə inanclı gəncin alternativ hərbi xidmətdən faydalanması və bir neçə məhbusun əfvi və ya həbs müddətinin azaldılması ilə bağlı GMİ tərəfindən təqdim olunan müraciətlərin müvafiq dövlət qurumları tərəfindən qəbul olunduğunu diqqətə çatdırıb.

Daha sonra çıxış edən Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze ölkənin tarix və mədəniyyətinin formalaşmasında müsəlman icmasının böyük rol oynadığını qeyd edib. "Gürcüstanda müsəlmanların sayı 400 min nəfərdən çoxdur və onlar ölkə əhalisinin 11%-ə yaxını təşkil edirlər. Gürcüstanda müxtəlif məzhəblərə məxsus müsəlmanlar bir təşkilatda birləşiblər və bir məsciddə ibadət edirlər. Biz, Gürcüstan İslamı fenomeninin mövcud olduğunu deyə bilərik", - Z. Vaşakmadze deyib.

Agentlik sədri Gürcüstan hökumətinin ölkənin müsəlman icmasına hər zaman xüsusi diqqət və qayğı göstərdiyini qeyd edib: "Gürcüstan Müsəlmanları İdarəsi ölkədə ən böyük dini qurumlardan biridir və onun yüksək hüquqi statusu var. İdarə qonşu Azərbaycan, İran, Türkiyə və digər dövlətlər tərəfindən də tanınıb. Dini Məsələlər üzrə Dövlət Agentliyi bundan sonra da idarəyə dəstək göstərməkdə davam edəcək".

Kvemo Kartli bölgəsinin qubernatoru Şota Rexviaşvili GMİ-nin son illər həyata keçirdiyi fəaliyyətini yüksək qiymətləndirib. O, çıxışında Gürcüstan hökumətinin müsəlman icmasına dəstək və qayğısından danışaraq ölkədə yaşayan etnik azlıqların din hüquq və azadlıqlarının təmin olunduğunu qeyd edib.

Tədbirdə Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov, digər rəsmi şəxslər, Türkiyə və İran səfirliklərinin nümayəndələri və ziyalılar da iştirak ediblər.

# UŞAQ BAĞÇALARININ BİNASINDA TEMPERATUR NECƏ OLMALIDIR VƏ TƏHLÜKƏSİZLİK NORMALARI NECƏ QORUNMALIDIR

Havaların soyuması ilə yanaşı uşaq bağçalarında istilik məsələləri də aktuallaşır. Uşaq bağçaları üçün hansı temperatur məsləhət görülür, hansı növ isitmə yolveriləndir, müəssisələr hansı standartları tətbiq etməlidirilər və təhlükəsizlik normalarını necə qorumalıdırlar? Qeyd olunan suallara Uşaq Bağçaları Agentliyinin müvafiq nizamnaməsinə əsasən cavabları təqdim edirik.



Qeyd edək ki, agentlik uşaq bağçalarında isitilik sisteminin qoşulmasına dair konkret tarix müəyyən etmir və istiliyin nə zaman qoşulacağına bağça direktorları qərar verir. Uşaq bağçalarında müəyyən temperaturun olması vacibliyinə dair şərt qoyan məsləhət və sərəncamlar var.

"Tədris və yataq otaqlarında hava temperaturu 20-24 selsi dərəcə və ilin fəslinə uyğun olmalıdır. Məktəbəqədər müəssisənin birinci mərtəbəsinin döşəməsinin temperaturu ilin soyuq dövründə ən azı 22 selsi (döşəmənin istiliyi) olmalıdır. Məktəbəqədər uşaq müəssisəsinin binasında mərkəzi isitilik sistemi və havalandırma sistemləri olmalıdır. Kənd tipli məntəqələrdə ən azı 50 nəfər üçün nəzərdə tutulmalıdır", - uşaq bağçalarının qurulması, təchiz edilməsi və sanitar normalar haqqında nizamnamədə qeyd olunur.

Uşaq bağçaları binasının hansı vasitələrlə isidilməsi və təhlükəsizlik normalarının necə qorunmasını nəzərdən keçirək:

- Soba ilə isitmə yolveriləndir, ancaq soba hermetik olaraq bağlanmalıdır.
- İstilik uşaqların bağçaya gəlməsindən 1,5-2 saat əvvəl qoşulmalıdır.
- İldə ən azı iki dəfə xüsusi komissiya tərəfindən sobaların təhlükəsizliyi yoxlanılmalıdır.
- Uşaqların təhlükəsizliyi üçün yaxşı olar ki, qızdırıcı qurğular məhdudlaşdırılsın.
- Binanın qızdırılmasını rayon və ya yerli qazanxanadan istilik elektrik stansiyası təmin etməlidir.
- Avtonom isitmə yolveriləndir.
- Ümumi təhsil müəssisələrini buxarla isitmək yolverilməzdir.
- İsitmə üçün radiatorlardan istifadə etmək olar. Qızdırıcı pəncərənin altında montaj olunmalıdır. Taxtadan olan qoruyucu lövhələrlə əhatə olunmalı və temperaturu tənzimləyən qurğusu olmalıdır.
- Qoruyucu olaraq polimer maddələrdən hazırlanmış lövhələrin istifadə olunması yolverilməzdir.
- Qızdırıcı cihazların səthində orta temperatur göstəricisi 80 dərəcə selsidən çox olmamalıdır.

# MANDATUR XİDMƏTİNƏ YENİ RƏHBƏR TƏYİN EDİLİB

Mandatur xidmətinə yeni rəhbər təyin edilib. Təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvili mandatur xidmətinə yeni rəhbər Qela Qeladzeni təyin edib. Ona qədər Qeladze mandatur xidmətinin rəhbər müavini olub.

Mandatur xidmətinin yeni rəhbəri vəzifə öhdəliyini artıq yerinə yetirməyə başlayıb. Təhsil, elm, mədəniyyət və idman nazirinin müavini Natia Zedqinidze ilə birgə mandatur xidmətinin yeni rəhbəri Tbilisi məktəblərinin mandaturları ilə görüş keçiriblər və onlara planlaşdırılmış yenilikləri təqdim ediblər.



Qeyd edək ki, Qela Qeladze qeyd olunan vəzifədə Vaxtanq Meipariani əvəz edib. Vaxtanq Meipariani vəzifədən getməsi haqqında ərizəni cari ilin 18 sentyabrında təqdim edib.

## BOLNİSİ BƏLƏDİYYƏSİ EVSİZ AİLƏLƏR ÜÇÜN MƏNZİL KİRAYƏSİNİ ÖDƏYİR



Qeyd olunan proqramdan 12 ailə istifadə edir. Sosial proqrama dəyişiklik 3 il bundan əvvəl daxil olub. Bələdiyyə ərazisində qeydiyyatda olan və daimi yaşayış yeri olmayan ailələrə bələdiyyə hər ay yüz lari dəyərində məbləğlə mənzil kirayəsini ödəyir. Ailələr həmçinin kommunal xərclərlə də təmin olunurlar.

"Belə ailələr üçün bələdiyyədə 4 yaşayış yeri var. Ancaq sahə yetərli olmadığından daxil olan ərizələri qane etmirdi. Qərar verdik ki, sosial proqramda mənzil kirayəsi ilə təmin etməni qeyd edək. Azyaşlı uşaqları olan, yaşayış evi olmayan və reytinq balı 100 000-dən yuxarı olmayan gənc ailələrə 100 lari dəyərində məbləğ ödəyirik. İndiki mərhələdə 13 belə ailə var. Onların mənzil kirayəsi araşdırma nəticəsində təyin olunub", - bildirib Bolnisi bələdiyyəsinin mer müavini Valentina Naveriani.

## QARDABANİ BƏLƏDİYYƏSİNİN KƏNDLƏRİNDƏ YOLLARIN TİKİNTİ PROSESİ DAVAM EDİR



Qardabani bələdiyyəsinin kəndlərində yolların tikintisi prosesi davam edir. Qardabani yerli büdcəsindən ayrılmış 684 000 lari dəyərində məbləğə Botanika, Kalinino, Təzəkənd, Birlik və Axalşenidə ümumilikdə 3900 metr uzunluğunda daxili yolların asfltlanması işləri həyata keçirilir, Naqebi kəndində isə 500 metr daxili yol bərpa olunacaq.

"İndiki mərhələdə qeyd olunan kəndlərdə yollarda tikinti işləri davam edir və başa çatdıqdan sonra asfalt qatının tökülməsinə başlayacaqlar.

Sakinlər qeyd edirlər ki, həmin yollarda havalar pis olan zaman hərəkət etmək mümkün deyildi. Bu, kənd əhalisinin ümumi problemidir. Məhz ona görə də yerli özünüidarəetmə əhalinin ehtiyacından dolayı yolların bərpa işlərini planlaşdırıb", - Qardabani meriyasının mətbuat xidmətinin verdiyi məlumatda bildirilir.

## BOLNİSİ ŞƏHƏRİNDƏ YENİ MİNİ STADİON VƏ PARK TİKİLƏCƏK

Bolnisi şəhərində, Cansul Kaxidze küçəsində yerləşən 6 saylı uşaq bağçasının ətrafında yeni mini stadion və park tikiləcək. Layihəni həyata keçirmək üçün elektron tender artıq başa çatıb. İndiki mərhələdə şirkətlərin seçilməsi-qiymətləndirilməsi prosesi gedir. İşlər bələdiyyənin yerli büdcəsindən maliyyələşib və müqavilə bağlandıqdan 4 ay ərzində təhvil verilməlidir.

"Bolnisi bələdiyyəsinin özünüidəetməsi sağlam həyat tərzinin əsasının qoyulmasına dair aktiv təbliğat aparır. Bələdiyyədə idman dərnəkləri fəal çalışır. Düşünürük ki, idman infrastrukturunun inkişafı gənclərin fiziki aktivliklə məşğul olması və gələcəkdə uğur əldə etməsi üçün vacibdir", - deyə Bolnisi meri Davit Şerazadişvili bildirib.

## MARNEULİDƏN OLAN İDMANÇI QIZIL MEDAL QAZANIB



Marneulinin Qızılhacılı kəndindən olan 26 yaşlı gənc idmancı Təbriz Bağmanov noyabrın 10-u Tbilisidə keçirilən "Eagle fight series professional" yarışında qalib gələrək qızıl medal qazanıb.

67 kiloqram çəki dərəcəsində mübarizə aparan Təbriz Bağmanovun rəqibi Azərbaycandan olan idmançı olub.

Yarışda qalib olduğu üçün Marneuli bələdiyyəsi idmançını diplom və medalla təltif edib.

Qeyd edək ki, T. Bağmanov hazırda Marneulidə qaydasız döyüş növü üzrə məşqçi kimi fəaliyyət göstərir.

# MÜVƏQQƏTİ HÖKUMƏT KOMİSSİYASI SƏRHƏD XƏTTİ ƏTRAFINDA YERLƏŞƏN KƏNDLƏRİN EHTİYACLARINI MÜZAKİRƏ EDİB



Regional İnkişaf və İnfrastruktur Nazirliyində "sərhəd xətti ətrafında yerləşən kəndlərin və zərərçəkmiş əhalinin ehtiyaclarına reaksiya göstərilməsinə dair müvəqqəti komissiyanın iclası" baş tutub. İclasda regional inkişaf və infrastruktur naziri Maia Tskitişvili, barış və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri Ketevan Tsixelaşvili, sərhəd xətti ətrafında yerləşən bələdiyyələrin merləri, bölgə qubernatorları və komissiya üzvləri iştirak ediblər.

Müvəqqəti Hökumət Komissiyası görülən işlərin hesabatını dinləyib və gələcək tədbirləri planlaşdırıb.

2013-cü ildən sərhəd xətti ətrafındakı kəndlərdə qazlaşdırma, yol infrastrukturu, su təchizatı, təhsilin maliyyələşdirilməsi, səhiyyə, kənd təsərrüfatı və başqa istiqamətlərdə işlər həyata keçirilib.

62 kənddə qazlaşdırma başa çatıb və 14 minə qədər abonent qazla təmin olunub. Elektrik enerjisinin verilməsi çərçivəsində isə şəbəkəyə Zuqdidi bələdiyyəsinin 400-dən çox abonenti qoşulub. Qori, Kareli, Kaspi, Saçxere, Oni, Xaşuri bələdiyyələrində 12 mindən artıq ailəyə qış tədbirləri çərçivəsində yardım göstərilib.

Yol infrastrukturunun qurulması məqsədi ilə 2013-cü ildən təqribən 40 km yolun bərpası işləri həyata keçirilib. Təkcə regionlarda həyata keçirilməli olan layihələr fondundan müxtəlif istiqamətlərdə 23 milyon lariyə qədər məbləğ ayrılıb. Cari ildə həmin fonddan təqribən 3,2 milyon larinin Qori, Zuqdidi, Oni və Saçxere bələdiyyələrini bölən xəttin ərazisindəki 5 kənddə avtomobil yolunun infrastrukturunun inkişafı üçün ayrılması planlaşdırılır. Bu layihələrdən 10 minə qədər benefisiar istifadə edəcək.

"Bu elə formatdır ki, sərhəd xətti ətrafında yerləşən əhalinin hansı problemlərinin olmasını daha yaxşı başa düşməyimizə imkan yaradır. İlk növbədə ötən illərdə olduğu kimi 2018-2019-cu illərdə də 1500-ə qədər tələbə tədris vauçeri formasında 3 milyon lariyə qədər maliyyələşdirmə qazanacaq.

Həmçinin 24 kəndin şəbəkləşdirilməsini nəzərdə tutan su təchizatı işlərinin ikinci fazasına başlayacağıq. Bu istiqamətdə 28 milyon laridən artıq məbləğ xərclənəcək. Bununla qeyd olunan layihələri yekunlaşdıracağıq və təqribən 15 minə yaxın əhali stabil su təchizatından istifadə edəcək. Bu, hamısı deyil, başqa istiqamətlərdə də aktiv olaraq çalışırıq ki, sərhəd xəttində yaşayan vətəndaşların məişət şərtlərini yüngülləşdirək", - deyə Maia Tskitişvili bildirib.

Sərhəd xətti ətraf ərazisində yerləşən kəndlərdə 20-dən artıq ambulatoriya qurulub və təchiz olunub. Əhali tibbi müayinədən keçib və medikamentlərlə təmin olunub.

Bu il Zuqdidi bələdiyyəsində, Xurça və Axal Abastumanidə küçələrin işıqlandırılması üçün təqribən 148 000 lari ayrılacaq. Bundan 3 minə yaxın benefisiar istifadə edəcək. Eləcə də Saçxere bələdiyyəsinin Perve kəndində iki körpünün bərpası planlaşdırılır. Bu layihənin təxmini dəyəri 200 min laridir.

Kiçik torpaq sahəsi olan fermerlərə dəstək proqramı çərçivəsində 17 min hektar torpaq sahəsi becərilib. Aqro sığorta proqramından 1152 benefisiar istifadə edib. Mikro və kiçik sahibkarlığa dəstək proqramı çərçivəsində isə 150-yə qədər benefisiar 655 min lari dəyərində maliyyələşib.

"5 ildir ki, komissiya mövcuddur. Onlar çox vacib qərarlar qəbul edirlər, amma bununla problemlər bitmir. 2013-cü ildə biz faktiki olaraq sıfırdan başladıq. Problemləri müəyyən etdik və bütün müəssisələri mobilləşdirərək indiki mərhələdə çox problemlərə cavab veririk. Digər məsələlərlə yanaşı bu gün ailələrə 200 larilik istilik vauçeri ilə yardım göstərilməsinə qərar verəcəyik. İnfrastruktur layihələrindən, su təchizatı, səhiyyə məsələlərindən danışırıq. Bizim strateji məqsədimiz odur ki, bölgə xətti ətrafında yaşayan əhaliyə yardım edək və dövlətin bütün vətəndaşlara etdiyi yaxşılıqdan onlar da yararlansınlar", - deyə Ketevan Tsixelaşvili bildirib.

## BÜTÜN GÜRCÜSTAN MÜSƏLMANLARI İDARƏSİNİN TBİLİSİDƏKİ OFİSİNDƏ 11 ADDA YENİ KİTABIN TƏQDİMATI KEÇİRİLİB



Noyabrın 6-sı Bütün Gürcüstan Müsəlmanları İdarəsinin (BGMİ) mərkəzi ofisində BGMİ-nin və Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının birgə nəşr etdirdikləri – "Kainat, Quran və insan", "Təfəkkür", "Məsnəvi söhbətləri", "Şəxsiyyət dili və liderlik", "Sünnəsiz din naqisdir", "Peyğəmbərimizin İslamı təbliğ metodları", "İmandan ehsana təsəvvüf", "Dar ağacındakı Quran şəhidləri", "Haqq dostlarından hikmətlər – Bəyazid Bistami", "Mömində ruhi disiplin", "Dəlilləriylə ailə elmihalı" adlı kitabların təqdimat mərasimi keçirilib. Mərasimdə müxtəlif bölgələrdən olan imamlar, müəllimlər və ictimaiyyət nümayəndələri iştirak ediblər. Təqdimatın sonunda iştirakçılara yeni nəşr edilmiş kitablardan ibarət hədiyyələr verilib.

Qeyd edək ki, kitablar 9 min tirajla çap edilib.

## "ƏLİ VƏ NİNO" TAMAŞASI MARNEULİ BƏLƏDİYYƏSİNİN MƏDƏNİYYƏT MƏRKƏZİNİN SƏHNƏSİNDƏ NÜMAYİŞ ETDİRİLİB

Noyabrın 9-u Kvemo Kartli qubernatoru Şota Rexviaşvili müavinləri və Marneuli bələdiyyəsinin rəhbər şəxsləri ilə birgə "Əli və Nino" tamaşasının nümayişində iştirak edib.

Qurban Səidin romanı əsasında səhnələşdirilmiş tamaşanı Marneuli bələdiyyəsinin Mədəniyyət Mərkəzinin səhnəsində rejissor Qoça Kapanadzenin rəhbərliyi ilə İvane Maçabeli adına Çxinvali Peşəkar Dövlət Dram Teatrının aktyorları oynayıblar.

Tamaşada Birinci Dünya mühribəsi və Bakıda inqilab fonunda inkişaf edən aristokrat mənşəli azərbaycanlı gənc Əli Şirvanşirin və gürcü şahzadəsinin qızı Nino Ğipianinin sevgi hekayəsi göstərilib.

Tədbir Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin və Q.Leonidze adına Ədəbiyyat Muzeyinin təşəbbüsü ilə "Rəngarəng Gürcüstan" layihəsi çərçivəsində baş tutub.

Tamaşa Gürcüstan və Azərbaycanın müstəqilliyinin 100 illiyinə həsr olunub.

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

15 NOYABR 2018-Cİ İL
№018 (77)

## TOP-10 İDXAL EDİLMİŞ KƏND TƏSƏRRÜFATI MƏHSULU – GÜRCÜSTAN XARİCDƏN ƏN ÇOX NƏ ALIR

**10**

İDXAL EDİLƏN KƏND TƏSƏRRÜFATI MƏHSULLARI

1. Buğda və meslin – 441,918.4 ton
2. Şəkər – 127,276.5 ton
3. Ət və ev quşları – 35,647.9 ton
4. Şokolad və kakao – 10,274.9 ton
5. Digər qida məhsulları – 4,726.4 ton
6. Günəbaxan yağı – 15,378.9 litr
7. Unlu qənnadı məmulatları – 15,378.9 ton
8. Etil spirti – 19,967,665 litr
9. Spirtli içkilər – 1,832,545 litr
10. Donuz əti – 10,630.0 ton

2018-ci ilin yanvar-sentyabr aylarında Gürcüstana idxal edilmiş məhsulun həcmi 19,1% artıb.

Milli Statistika Xidmətinin göstəricilərinə əsasən, bu il 9 ay ərzində ölkəyə 6,676 milyard ABŞ dolları dəyərində məhsul daxil olub.

"BusinessPressNews" saytı bu il Gürcüstana ən çox daxil olan kənd təsərrüfatı və qida məhsullarının onluğunu tərtib edib.

Milli Statistika Xidməti tərəfindən verilmiş məlumata əsasən, 2018-ci ilin yanvar-sentyabr aylarında buğda və meslinin idxalı 86,6 milyon dollar təşkil edərək kənd təsərrüfatı məhsulları və ərzaq qrupları arasında birinci yeri tutub.

İkinci yerdə şəkərdir. Onun idxalı 46,4 milyon dollar təşkil edib. Üçüncü yerdə isə ət və qida məhsulları –yeni, dondurulmuş ev quşları – bunların hamısının idxalı 2018-ci ilin yanvar-sentyabr aylarında 45 milyon dollar təşkil edib.

Digər məhsullardan isə 32,3 milyon dollarlıq şokolad və kakao tərkibli hazır qida məhsullarının idxalı olub. Günəbaxan yağının, pambığın idxalı 28,8 milyon dollar təşkil edib.

Onluqda çörək, unlu qənnadı məmulatları, şirniyyat və başqa un məhsullarının idxalı da yer alır. Onların idxalı 28 milyon dollar təşkil edib. Etil spirtinin idxalı 24,9 milyon dollar, spirtli içkilərin idxalı 22,3 milyon dollar təşkil edib. Onluğu yeni, dondurulmuş donuz əti tamamlayır. 2018-ci ilin yanvar-sentyabr aylarında donuz ətinin idxalı 20 milyon dollar təşkil edib. Qalan kənd təsərrüfatı məhsullarının idxalı isə 6,31 milyard dollar təşkil edib.

## MƏKTƏBLƏR ÜÇÜN QIŞ TƏTİLİNİN TARİXİ MƏLUM OLUB



2018-2019-cu tədris ilinin qış tətil günləri məlum olub. Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyindən bildiriblər ki, tətil dövrü dekabrın sonundan başlayacaq və yanvarın orta tarixlərinə qədər davam edəcək. Daha konkret desək, qış tətili 30 dekabrdan 15 yanvara qədər davam edəcək. 30 dekabr bazar gününə təsadüf etdiyi üçün şagirdlər üçün sonuncu dərs günü 28 dekabr olacaq. Dərslər isə 2019-cu ilin 15 yanvarında, həftənin üçüncü günü başlayacaq.

## BU İL 570 NƏFƏR QİÇS-Ə YOLUXUB



Gürcüstanın İnfeksiya patologiyası, QİÇS və Kliniki immunologiya üzrə Elmi-Praktik Mərkəzinin yaydığı məlumata əsasən, bu ilin əvvəlindən Gürcüstanda QİÇS-ə yoluxanların sayı 570 nəfər artıb.

Cari ilin noyabrın 6-na ölkədə, ümumilikdə, 7332 QİÇS-ə yoluxma halı qeydə alınıb.

QİÇS-ə yoluxanların 5486 nəfəri kişi, 1846-sı isə qadındır. Pasiyentlərin böyük əksəriyyəti 29-40 yaş qrupuna aiddir. QİÇS 3816 xəstədə inkişaf edib, 1495 nəfər isə xəstəlikdən dünyasını dəyişib.

HİV infeksiyasına yoluxma hallarının 46,2%-i heteroseksual əlaqə, 40,2%-i isə narkotik vasitələrdən istifadə ilə əlaqəlidir.

QİÇS-ə yoluxan şəxslərin böyük əksəriyyəti (2587 nəfər) Tbilisinin payına düşür. Xəstəlik daşıyıcılarının 87 nəfərini əcnəbi vətəndaşlar təşkil edir.

Qeyd edək ki, Gürcüstanda QİÇS-ə yoluxma ilə bağlı ilk hal 1989-cu ildə qeydə alınıb.

## GÜRCÜSTAN MÜDAFİƏ XƏRCLƏRİNİ ARTIRIR



Gürcüstan hökuməti tərəfindən ölkə parlamentinə təqdim olunmuş 2019-cu ilin büdcə layihəsinə əsasən, dövlət büdcəsindən ölkənin Müdafiə Nazirliyinə 870 milyon lari vəsait ayrılacaq.

İlkin büdcə layihəsi ilə müqayisədə Müdafiə Nazirliyinə ayrılacaq vəsait 80 milyon lari çoxdur.

Yeni büdcə layihəsində silahların alınması üçün 55 milyon lari həcmində kredit də nəzərdə tutulub.

Gürcüstan Müdafiə Nazirliyinə dövlət büdcəsindən gələn il ayrılacaq vəsait 2018-ci illə müqayisədə 68 milyon, 2017-ci illə müqayisədə isə 100 milyon lari çoxdur.

## ELEKTRİK ENERJİSİ VERGİSİNİN 3 DƏFƏ GECİKDİRİLMƏSİ HALINDA ABONENT DEPOZİT VERGİSİ ÖDƏYƏCƏK



Elektrik enerjisi vergisinin gecikdirilməsi halında abonent depozit vergisi ödəməli olacaq. Bu, abonentin bir təqvim ili ərzində işıq vergisi qrafikini 3 dəfə pozması halında baş verəcək.

"Telasi" şirkətindən "BusinessPressNews"a bildiriblər ki, bu, Gürcüstan Energetika və Su Təchizatının Tənzimlənməsi üzrə Milli Komissiyanın yeni qüvvəyə minmiş sərəncamıdır: "Əgər il ərzində abonent 3 dəfə elektrik enerjisi vergisinin qrafikini pozarsa onun üzərinə depozit vergisi qoyulacaq. Depozit məbləğinin həcmi bir aylıq abonent vergisi qədər olacaq. Məbləğ abonentin depozitinə köçəcək və o, bir il ərzində həmin məbləğdən istifadə edə biləcək".

## GÜRCÜSTANDA İLLİK İNFLYASİYA 2,3% OLUB

Gürcüstanın Milli Statistika İdarəsinin məlumatına əsasən, oktyabr ayında Gürcüstanda inflyasiya 0,3% təşkil edib. Ölkədə illik inflyasiya isə 2,3% olub.

Oktyabr ayında Gürcüstanda geyim (3,6%) və ayaqqabıların (12.6%) qiymətində bahalaşma olub. Nəqliyyat xərcləri 0,6%, spirtli içkilər və tütünün qiyməti 0,7%, səhiyyə xərcləri isə 0,6% artıb.

İllik inflyasiyaya gəlincə, ötən illə müqayisədə ərzaq və alkoqolsuz içkilər 0,2%, alkoqollu içkilər və tütün 5,7%, nəqliyyat xərcləri 6,5%, səhiyyə xərcləri 6,1%, kommunal xərclər isə 4,4% artıb.

## PREZİDENTLİYƏ NAMİZƏDLƏR "FACEBOOK"DA REKLAMA 53 MİN LARİDƏN ÇOX PUL XƏRCLƏYİBLƏR



Gürcüstan prezidentliyinə namizədlər "Facebook" sosial şəbəkəsində reklama 53 min laridən çox vəsait xərcləyiblər. Bu barədə Gürcüstanın Dövlət Audit İdarəsi məlumat yayıb.

"Facebook"da reklama ən çox pulu 35 396 lari olmaqla prezidentliyə müstəqil namizəd Salome Zurabişvili xərcləyib. Vahid Milli Hərəkat Partiyasının namizədi Qriqol Vaşadze 16 638 lari, Avropalı Gürcüstan Partiyasının namizədi David Bakradze isə 878 lari xərcləyib.

**Təsisçi:**
"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"

**Redaktor:** Azər Musaoğlu
**Yayım Direktoru:** Hacı Bəkiroğlu
**Qrafik dizayn:** Elsevər Əhmədov

***ÜNVAN:*** Qardabani şəh. Kolxoz küç, 4
***TEL:*** *(+995) 555 96 18 68*
*599 54 12 92*
***EMAİL:*** *yeni_yol@mail.ru*

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.